UOT 338.43

Mehriban Cabir qızı HƏSƏNOVA
Azərbaycan Dövlət Aqrar Universiteti, baş müəllim
e-poçt:mehribanadau@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.004.024

AZƏRBAYCANDA AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi, sahibkarlığın formaları, onun daxili və xarici mühit amillərinin müəyyənləşdirilməsi, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi və təşkilati mexanizmlərinin araşdırılmasıdır.

Tədqiqatın metodologiyası – tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi olaraq ümumiləşdirmədən və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – aqrar sahədə sahibkarlıq fəaliyyətinin koordinasiyalı idarəetmə mexanizmini, kənd təsərrüfatında sahibkarlıq qurumlarının maliyyə nəticələrinin yaxşılaşdırılmasını nəzərə alaraq, aqrar sahibkarlığın inkişafına mütərəqqi texnologiyaları tətbiq etmək.

Tədqiqatın nəticəsi – sahibkarlıq fəaliyyətində ilk növbədə təşəbbüskarlıq qabiliyyətinin, kommersiya risklərinin, təsərrüfat məsuliyyətinin, istehsal faktorlarının kombiləşməsinin və yenilik funksiyalarının inkişaf etməsi onun səmərəliliyinin artırılmasına gətirib çıxarır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – regionların ixtisaslaşma istiqamətindən asılı olaraq aqrar sahədə sahibkarlığın ayrı-ayrı növlərinin inkişaf prioritetlərinin geniş tətbiq edilməsi, aqrar sahibkarlığın inkişafında bazar infrastrukturlarının rolu və mövqeyinin əhəmiyyəti müəyyən edilmişdir.

Açar sözlər: transformasiya yönümlü dəyişikliklər, aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi, müxtəlif mülkiyyət mənsublu sahibkarlıq subyektləri, sahibkarlıq fəaliyyətinin iqtisadi təbiəti.

Giriş

Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın və sosial rifahın əsasını təşkil edir. Belə ki, bir bədəndə hüceyrənin rolu nədən ibarətdirsə, iqtisadiyyatda da sahibkarlığın rolu ona bərabərdir. “Sahibkar” sözü beynəlxalq termin kimi fransız dilində olan “entreprendre” və alman dilində olan “unthernehmen” sözlərinin birləşməsindən əmələ gələrək “entrepreneur” kimi işlənir. Mənası bir fəaliyyət sahəsində yeni bir iş quran şəxs deməkdir. Ümumiyyətlə “sahibkar” sözü ilə bağlı bir çox tərifl ər olsa da, dünyada əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organization for Economic Cooperation and Development - OECD) tərəfindən verilən tərif daha çox qəbul edilir və OECD-nin tərifinə görə, sahibkar “Hər hansı bir məhsulu və ya xidməti istehsal etmək üçün yeni bir iş və bazar axtarışında olan, qarşısına çıxan fürsətləri dəyərləndirən və riskləri göz önünə alaraq, bir iqtisadi fəaliyyətə başlayan və ya mövcud olan bir iqtisadi fəaliyyəti böyüdərək inkişaf etdirən şəxsdir”. Eyni zamanda iqtisadiyyatda ən vacib proseslərdən biri də istehsalla əlaqədar olan sahibkarlıq fəaliyyətləridir ki, bunlar da özündə təbii, texnoloji, əmək, maliyyə və digər amilləri birləşdirən sahibkarlıq qabiliyyətlərindən ibarətdir. Kənd təsərrüfatı fəaliyyəti insanların tarixən ən qədim fəaliyyətlərindən biridir və müasir dünyamızda da ən aktual fəaliyyət növlərindən biri olaraq qalır. Eyni zamanda son dövrlər dünyada baş verən təbii və antropogen təsirlər nəticəsində gələcəkdə yaranma ehtimalı yüksək olan qlobal ərzaq təhlükəsizliyi problemi bu sahənin hələ uzun illər ən aktual fəaliyyət növlərindən biri olacağını göstərir. Belə olan halda aqrar sahənin daima daha dayanıqlı və səmərəli inkişaf etməsində sahibkarlıq fəaliyyəti çox əhəmiyyətli rol oynaya bilər. Aqrar sahədə sahibkarlıq fəaliyyəti bir çox sahənin bir-biri ilə əlaqəli şəkildə birlikdə fəaliyyəti nəticəsində baş tutan bir hadisədir. Belə ki, bu proses zamanı sahibkarlar tərəfindən bütün

vasitələrdən, xüsusilə torpaq, əmək, texnika, logistika, kapital və s. kimi resurslardan optimal və səmərəli şəkildə istifadə edilərək, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, bazara çıxarılaraq satışı və s. dəyər yaradan işlər görülür. Bütün bunlarla əlaqədar olaraq aqrar sahədə sahibkarlığın inkişafı məsələləri diqqəti cəlb edir.

Aqrar sahədə sahibkarlığın strukturu və inkişafı istiqamətləri. Planetin əhalisinin durmadan artması ərzağa və qida məhsullarına olan tələbatı artırır ki, buna da həm kənd təsərrüfatı, həm də qida sənayesində istehsalın həcminin genişləndirilməsi, beləliklə də ərzaq və qida təhlükəsizliyinin sistemli şəkildə təmin edilməsi ilə nail olmaq mümkündür. Qeyd etdiyimiz tədbirlərin həyata keçirilməsi, həmçinin kənd təsərrüfatı sahələrindəki ənənəvi fəaliyyətə, istehsala, ətraf mühitə, sağlamlığa təhlükə vura biləcək elementlərin də aradan qaldırılmasına şərait yaradacaqdır. Bunun üçün təsərrüfat subyektlərinin dəstəklənməsi, kənd təsərrüfatı ilə bağlı istehsal sistemlərində və üsullarında lazımi təkmilləşdirmələrin aparılması, eyni zamanda kəndli təsərrüfatlarının hər birinin bir sahibkarlıq subyekti olduğu nəzərə alınmaqla lazımi maliyyə dəstəyinin göstərilməsi tədbirləri reallaşdırılmalıdır. Bu səbəbdən də aqrar sahədə sahibkarlıq fəaliyyətinə diqqəti yönəldən bir sistemin yaradılması və bunun səmərəli şəkildə yönəldilməsi aktuallaşmaqdadır. Aqrar sahədə sahibkarlıq sisteminin yaradılması kənd təsərrüfatında sahibkarlıq mədəniyyətinin inkişafına və yayılmasına töhfə verəcəyi nəinki ehtimal olunur, hətta artıq gerçəkləşməkdədir. [1, s.18-19]

İqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahədə də transformasiya yönümlü dəyişikliklər uğurla başa çatdırılmış, azad rəqabət mühitinə əsaslanan bazar iqtisadiyyatı formalaşdırılmışdır.

Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatın digər sahələri ilə müqayisədə özünəməxsus fərqli xüsusiyyətlərə malikdir. Təbii ki, bütün bunlar iqtisadiyyatın sahə quruluşu və eləcə də qeyri-neft sektorunun özünəməxsus xüsusiyyətlərindən irəli gəlir.Bildiyimiz kimi, qeyri-neft sektoru təbii-iqlim şəraitindən asılı, eləcə də daxili və xarici rəqabətin əlverişsiz təzahürlərinə effektiv şəkildə reaksiya göstərə bilməyən bir sahədir. Məhz bu baxımdan da aqrar sahədə sahibkarlıq fəaliyyətinin də özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu da ilk növbədə onunla bağlıdır ki, aqrar sahənin tam mənası ilə bazar özünütənzimləmə mexanizminin öhdəsinə buraxılması son nəticədə sahibkarlıq fəaliyyətinin inkişafına mənfi təsir göstərir. Ona görə də, aqrar sahədə sahibkarlığın inkişafına mənfi təsir göstərən çoxsaylı daxili və xarici mühit faktorlarının zərərli təsirlərinin neytrallaşdırılması vacibdir.[2, s.25-26]

Müasir şəraitdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, bütövlükdə onun iqtisadiyyatda yerinə yetirdiyi çoxsaylı funksiyalarla bilavasitə bağlıdır. Bu baxımdan sahibkarlıq fəaliyyətinin yerinə yetirdiyi funksiyaları iki qrupda təsnifləşdirmək mümkündür. I qrupa aid olan funksiyalar sahibkarlıq subyektləri ilə ətraf mühit arasındakı qarşılıqlı münasibətləri özündə əks etdirir, uyğunlaşma funksiyaları kimi də xarakterizə edilir. Sahibkarlıq fəaliyyətinin yerinə yetirdiyi II qrupa daxil olan funksiyalar, ilk növbədə təsərrüfat və iqtisadi mühitin formalaşdırılmasına istiqamətlənir. Uyğunlaşma funksiyaları bir qayda olaraq ətraf mühitdə baş verən dəyişİkliklərə sahibkarlıq qurumlarının uyğunlaşmasını özündə əks etdirir və sahibkarlığın bütövlükdə dəyişən şəraitə adaptasiya imkanlarım şərtləndirir. Adı çəkilən funksiyalara bu resursdan yanaşdıqda, belə qənaətə gəlmək olar ki, əslində sahibkarlıq fəaliyyətinin yerinə yetirdiyi bu cür funksiyaları idarəetmə fəaliyyətinin xüsusi növü kimi də səciyyələndirmək mümkündür. Uyğunlaşma funksiyalarına əsasən maliyyə resurslarının idarə edilməsini, istehsalın idarə edilməsini, kadrlarla təchizat, maddi-texniki resurslara olan tələbatın ödənilməsi və satış funksiyalarını aid etmək mümkündür. Maliyyə resurslarının idarə edilməsi ilk növbədə, maliyyə və investisiya bazarlarında pul vəsaitlərindən istifadə edilməsi, eləcə də təsərrüfat fəaliyyətinə resursların cəlb edilməsi ilə bağlı məsələləri özündə əks etdirir. Təbii ki, maliyyə resurslarının idarə edilməsi funksiyalarını yerinə yetirən sahibkarlıq qurumları fəaliyyətlərini, ilk növbədə aşağı risklər şəraitində daha yüksək, maksimum gəlir əldə etməyə yönəldirlər. Bu zaman sahibkarlıq subyektləri əslində iki mühüm vəzifəni yerinə yetirməli olurlar. Bunlardan birincisi səfərbər edilən maliyyə resurslarının qiymətinin minimumlaşdırılması, ikincisi isə cəlb edilmiş resurslardan səmərəli istifadə edilməsi hesabına daha maksimum mənfəət

əldə edilməsi. Bütün bunlar isə son nəticədə müəssisədə aktiviərin dəyərinin yüksəlməsinə və eləcə də sahibkarlıq subyektinin maliyyə davamlılığının yüksəldilməsinə əlverişli şərait yaradır. [3, s.42]

Sahibkarlığın inkişaf istiqamətləri. Bazar münasibətləri şəraitində aqar saəhədə sahibkarlığın inkişafı ilk növbədə aqrar sahədə çoxukladlı iqtisadi münasibətlər sisteminin formalaşdırılmasına xidmət edir, məlum olduğu kimi hal-hazırda kənd təsərrüfatında mülkiyyət mənsubiyyətindən asılı olmayaraq çoxsaylı əmtəə istehsalçıları fəaliyyət göstərir. İlk növbədə fərdi sahibkarlar, fiziki şəxs statuslu ailə təsərrüfatları, eləcə də istehsal kooperativləri, kiçik müəssisələr və sair kənd təsərrüfatının fəaliyyət göstərən istehsal vahidlərinin mülkiyyət mənsubiyyətini özündə əks etdirir. Lakin nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarının iqtisadi vəziyyətinə bazar özünütənzimləmə mexanizmləri və eləcə də sahənin spesifik xüsusiyyətləri əhəmiyyətli dərəcədə təsir göstərir. Məhz belə bir şəraitdə aqrar sahədə istehsalın həcmi bazar tələbini ödəmək iqtidarında olmur və nəticə etibarilə sahibkarlığın inkişafının təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi obyektiv zərurətdən irəli gəlir. Aqrar sahədə sahibkarlığın inkişafı ilk növbədə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirləri, eləcə də bu proseslərin iqtisadi vasitələrlə dəstəklənməsini özündə əks etdirir. Mülkiyyətin xüsusi formaları, eləcə də sərbəst qiymətqoyma, dövlətin mərkəzləşdirmə və planlaşdırma sistemindən imtina etməsi və bazara aktiv tənzimləmə siyasətindən kənarlaşması, nəticə etibarilə inkişafın məqsədlərini və fəaliyyət istiqamətlərinin təkmİlləşdirilməsini obyektiv zərurətə çevirir.[4, s.11-12]

Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində sahənin investisiya cəlbediciliyinin yüksəldilməsinə və investisiyalaşma prosesinin gücləndirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir. Daha doğrusu, aqrar sahədə sahibkarlığın inkişafının iqtisadi cəhətdən təkmilləşdirilməsi, dövlətin investisiya siyasəti ilə dəstəklənməlidir. Ona görə də ölkə Prezidentinin sərəncamı əsasında yaradılmış Dövlət İnvestisiya Şirkətinin başlıca məqsədi qeyri-neft sektoruna investisiyaların yönəldilməsini təmin etməkdən idarətdir. Dövlətin aqrar sahənin maraqları naminə, daha doğrusu kənd təsərrüfatında sahibkarlıq qurumlarının inkişafına istiqamətlənmiş investisiya siyasətinin gerçəkləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu sahədə Sahibkarlığın İnkişafına Kömək Milli Fondu vasitəsilə müəyyən layihələr gerçəkləşdirilir ki, həmin layihələr ilk növbədə regionlarda fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyətinin genişləndirilməsinə, eləcə də emal müəssisələrinin yaradılmasına istiqamətlənir. Lakin bununla belə dövlətin aqrar investisiya siyasəti reallaşdırılması da sahibkarlığın inkişaf istiqamətinin təkimilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

Respublikamızda son illər kənd təsərrüfatında maddi-texniki resurslara olan tələbatın ödənilməsinə istiqamətlənmiş tədbirlər kompleksi işlənib həyata keçirilir.

Məlum olduğu kimi aqrar islahatlar nəticəsində əmlak və torpaq özəlləşdirilmiş, müxtəlif mülkiyyət mənsublu sahibkarlıq subyektləri formalaşdırılmışdır.Hal-hazırda aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumları iqtisadi müstəqilliyə malik olmaqla məhsul istehsalını, satışını və gəlirlərin bölüşdürülməsini sərbəst şəkildə müəyyən edirlər. Ölkəmizdə sahibkarlığın inkişafına dövlət dəstəyi həyata keçirilir və bütün bunlar Ölkə prezidentinin sərəncamları ilə davamlı şəkildə təmin edilir. Belə ki, aqrar sahədə islahatların sürətləndirilməsi və dərinləşdirilməsi sahibkarlığın stimullaşdırılması məqsədilə aqrar sahədə sahibkarlığın inkişafına güclü təkan vermiş, həmin fərmana müvafiq olaraq kənd təsərrüfatı əmtəə istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmiş və bu proses hazırda da davam edir. [5, s. 36-37]

“Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)” aqrar sahədə kiçik sahibkarlığın inkişafına da əlverişli şərait yaradaraq, regionlarda kənd təsərrüfatı ilə məşğul olan sahibkarlıq qurumlarının inkişafına təkan verən qanunvericilik aktları içərisində qəbul edilmiş iki dövlət proqramını xüsusi qeyd etmək lazımdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Regionlarının sosial-iqtisad inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş

“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” kənd təsərrüfatında bazar iqtisadiyyatının möhkəmlənməsinə və sahibkarlığın müxtəlif formalarının inkişafına əhəmiyyətli dəstək vermişdir.Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinə və ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənməklə 2015-ci il üçün konkret hədəfləri özündə əks etdirir.

Dövlət proqramında ölkənin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan torpaq ehtiyatlarının davamlı və dayanıqlı istifadəsi ön plana çəkilmiş, aqrar sahənin dinamik inkişaf etməsi, kənd əhalisinin sosial həyat səviyyəsinin yüksəldilməsi, xüsusilə insanların yerlərdə məşğulluğunun təmin edilməsi sahəsində görüləcək işlər qeyd olunmuş, müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq regionun, rayonun, hətta kəndin konkret məkanı nəzərdə tutulan layihənin, həyata keçiriləcək tədbirin adı, icra müddəti, icraya məsul təşkilatlar göstərilmişdir. Dövlət Proqramının yerinə yetirilməsinin əsas istiqamətləri kənd əhalisinin maddi rifahı, sosial-məişət şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, dağ regionlarının inkişafı, özəlləşdirmə, işləməyən müəssisələrin fəaliyyətinin bərpası və yeni iş yerlərinin açılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda yaşayan vətəndaşların mənəvi ehtiyaclarının daha dolğun ödənilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, təhsil islahatları, onun struktur və məzmununun yeniləşdirilməsi, elm sahələrinin inkişaf etdirilməsi və s. xarakterini daşıyır.

Aqrar sahədə sahibkarlığın inkişafı ilə bağlı həllini gözləyən bir sıra təşkilati-iqtisadi problemlər də mövcuddur. Bu problemlərə sahibkarlıq qurumlarının kapital resurslarına olan ehtiyaclarının ödənilməsini, məhsulun satışı ilə bağlı qarşıya çıxan çətinlikləri, istehsalın hələ də ekstensiv əsaslar üzərində qurulmasını, məhsuldarlığın səviyyəsinin aşağı olmasını, kənd təsərrüfatının investisiya cəlbediciliyinin və gəlirlərin səviyyəsinin iqtisadiyyatın digər sahələri ilə müqayisədə qənaətbəxş olmamasını aid etmək olar. Məhz bu problemlərin aradan qaldırılması aqrar sahədə sahibkarlığın inkişafına dövlətin ciddi dəstəyini tələb edir.

Maliyyə daxilliyi və əlçatanlıq. Son illər aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumlarının üzləşdikləri problemlərin həllinə kömək məqsədilə bir sıra tədbirlər aparılır.Bunlara baxmayaraq aparılan tədbirlərin kompleks xarakter daşımaması, aqrar sahədə sahibkarlığın inkişaf istiqamətinə kifayət etmir.

Azərbaycanda aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi məqsədinə uyğun olaraq, aşağıdakı vəzifələri həyata keçirmək müəyyən edilir:

- sahibkarlıq fəaliyyətinin mahiyyəti və xarakterik xüsusiyyətləri;
- sahibkarlığın formaları, onun daxili və xarici mühit amillərinin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi və təşkilati mexanizmlərinin araşdırılması;
- kənd təsərrüfatının ayrı-ayrı sahələrində sahibkarlığın inkişafının mövcud vəziyyəti;
- aqrar sahədə sahibkarlıq fəaliyyətinin iqtisadi vasitələrlə stimullaşdırılmasının mövcud vəziyyətinin təhlil ediməsi;
- aqrar sahənin dövlət tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatında sahibkarlığın inkişafı istiqamətlərinin tədqiq edilməsi;
- aqrar sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi. [3,s.29]

Tənzimləyici problemlər. Aqrar sahədə sahibkarlığın inkişafına mənfi təsir göstərən və eləcə də daxili bazarda yerli sahibkarların xüsusi çəkisinin artımını əngəlləyən bir sıra cəhətlər də mövcuddur. Bunlar ilk növbədə onunla bağlıdır ki, aqrar sahədə çatışmazlıqların olması, maddi-texniki resurslarla təminatın kifayət qədər aşağı səviyyəsi və eləcə də əsas fondların fiziki və mənəvi cəhətdən köhnəlməsi prosesinin baş verməsi nəticə etibarilə fondla silahlanma səviyyəsinin aşağı olmasına səbəb olur. Bundan əlavə, aqrar sahədə gəlirlərin səviyyəsi də iqtisadiyyatın digər sahələri ilə müqayisədə aşağıdır.Kənd təsərrüfatı məhsullarının qiymətləri ilə sənaye məhsullarının

qiymətləri arasında disbalansın mövcudluğu da bütövlükdə fəaliyyət göstərən sahibkarlıq qurumlarının iqtisadi vəziyyətinin yetərsiz olmasını şərtləndirir. Həmçinin daxili bazarın çevik şəkildə qurulmaması səbəbindən yerli əmtəə istehsalçılarının iqtisadi stimullaşdırma səviyyəsi aşağı olur. Belə bir şəraitdə aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətlərinin zəruri iqtisadi və təşkilati mexanizmləri formalaşdırılmalıdır. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi ilk növbədə dövlətin aqrar siyasəti çərçivəsində kənd təsərrüfatının dövlət tənzimlənməsinə istiqamətlənməlidir. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi mexanizmləri dövlət tənzimlənməsinin birbaşa və dolayı təsir mexanizmlərinin effektiv şəkildə reallaşdırılmasına əsaslanmalı və eyni zamanda aqrar ərzaq bazarlarının tənzimlənməsi prosesləri də gerçəkləşdirilməlidir. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi mexanizmlərinə, ilk növbədə qiymət, maliyyə - kredit mexanizmləri, vergi və gömrük mexanizmlərini şamil etmək mümkündür. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin iqtisadi mexanizmini səciyyələndirən ən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, bu proseslər bütövlükdə sahibkarlıq fəaliyyətinin inkişafına, demək olar ki, dolayı yolla təsir göstərir. Dolayı təsir vasitələri ilk növbədə bazar özünütənzimləmə mexanizminin fundamental prinsiplərinin pozulmaması ilə müşayiət edilir. İnkişaf etmiş ölkələrin təcrübəsində davamlı olaraq iqtisadi mexanizmlərdən istifadə edilir. [6, s.54-55]

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişaf edtrilməsi ilk növbədə sahibkarlığın iqtisadi cəhətlərinin müdafiə edilməsinə, istehsalçıların iqtisadi cəhətdən stimullaşdırılmasına əsaslanır. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə əsaslanır. Sahibkarlığın inkişafına yardım göstərəcək istiqamətlər ilk növbədə ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə və bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. İnkişaf istiqamətləri nəticə etibarilə aqrar sahədə sahibkarlıq qurumlarının davamlı inkişafının təmin edilməsində də əhəmiyyətli rola malikdir. Sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə sahibkarlıq qurumlarının ehtiyaclarının - əsas və dövriyyə vəsaitlərinə olan tələbatının ödənilməsinə, eləcə də kredit resursları ilə effektiv şəkildə təmin edilməsinə əsaslanır.

Sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində dövlətin aqrar investisiya siyasəti, ilk növbədə sahənin investisiya cəlbediciliyinin yüksəlməsinə istiqamətlənməlidir.

Kənd təsərrüfatında aqrar sahibkarlığın inkişafında mühüm rol oynayan investisiya proseslərinin aktivləşdirilməsi, eyni zamanda investisiya proseslərinin cəlbediciliyinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- investisiya layihələrinin iştirakçılarının məsuliyyəti ilə bağlı regional sistemin yaradılması;
- investorun əmlakının girov qoyulması ilə bağlı risklərin sığortalanması, eləcə də investorların bütün mülkiyyətinə təminat verən regional investisiya sistemlərinin inkişaf etdirilməsi;
- kənd təsərrüfatı və emal sənayesi ilə bağlı qarşıda duran problemlərin həllinə imkan verilməsini təmin edən investorlar üçün güzəştli vergiqoyma sisteminin tətbiq edilməsi;
- aqrar-sənaye kompleksinin bütün seqmentləri və vergilərin ümumi səviyyəsinin aşağı salınmasına istiqamətlənmiş inkişaf strategiyasının seçilməsi;
- regionlarda investisiya qanunvericiliyinin davamlı olaraq təkmilləşdirilməsi;
- iri investisiya layihələrinin kreditləşdirilməsini həyata keçirməyə imkan verən və investisiya resurslarının regionlar və regionlararası banklarda təmərküzləşməsinə imkan verən bank sisteminin təkmilləşdirilməsi;
- iqtisadiyyatın investisiyalaşdırılması ilə bağlı olan regionlararası proqramların işlənib hazırlanması və reallaşdırılması;
- bazar infrastrukturlarının inkişafının idarə edilməsi, o cümlədən onların yeni institusional formalarının, kommersiya banklarının, kredit investisiya kompaniyalarının yaradılmasına İmkan verən regional idarəetmə orqanlarının formalaşdırılması.

Aqrar sahədə sahibkarlığın inkişafının investisiyalaşdırılması ilk növbədə özünəməxsus prioritet istiqamətlər kəsb etməlidir. Bu prioritet istiqamətlər ölkənin ərzaq təminatının yaxşılaşdırıl-

masına, istehsal edilən məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə imkan verməlidir. Bu məqsədlə ilk növbədə aqrar-sənaye istehsalçılarının texnoloji cəhətdən məhsuldar resurslarla təmin edilməsi, texnika və ehtiyat hissələrinə "olan tələbatın reallaşdırılması ilə bağlı regionlarda davamlı olaraq yeni diler mərkəzlərinin yaradılması, maliyyə lizinqinin kifayət qədər sürətli inkişaf etdirilməsi, bitkiçilikdə və heyvandarlıqda elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata davamlı olaraq tətbiqinin stimullaşdırılması, eləcə də kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin yüksəldilməsinə istiqamətlənmiş geniş təkrar istehsal prosesinin tətbiq edilməsi ön plana çəkilməlidir.

Məqalədə əhəmiyyət kəsb edən məsələlər aşağıdakılardan ibarətdir:

- aqrar sahədə sahibkarlıq fəaliyyətinin koordinasiyalı idarəetmə mexanizmi;
- mütərəqqi texnologiyaların tətbiqinin aqrar sahibkarlığın inkişafına təsiri;
- kənd təsərrüfatında sahibkarlıq qurumlarının maliyyə nəticələrinin yaxşılaşdırılması.

Aqrar sahədə innovasiya yönümlü dəyişikliklərin həyata keçirilməsi və eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqi bütövlükdə investisiya aktivliyinin yüksəldilməsinə gətirib çıxarmaqla yanaşı, həm də investisiya mühitinin yaxşılaşdırılmasına, eləcə də regionların investisiya cəlbediciliyinin artmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar:

- sahibkarlığın dövlət tərəfindən maliyyələşdirilməsi yolu ilə, istər dövlət, istərsə də regional səviyyədə aqrar elmi-maddi bazasının inkişafı, eləcə də elmi sferada ixtisaslı kadrların formalaşdırılması;
- sahibkarlığı maliyyələşdirilməsi ilə bağlı alternativ maliyyə mənbələrinin cəlb edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi;
- aqrar-sənaye məhsullarının istehsalı sferasında ekoloji təmiz texnologiyaların, eləcə də resurs qoruyucu texnologiyaların tətbiqinə istiqamətlənmiş işlərin həyata keçirilməsi;
- aqrar-sənaye kompleksinin inkişafı üçün elmi-texniki məhsulların regional bazarının formalaşdırılması və inkişaf etdirilməsi;
- bitkiçilikdə və heyvandarlıqda mütərəqqi texnologiyaların və eləcə də elmi-texniki məhsulların kommersiya yönümlü tətbiqini sürətləndirmək məqsədilə və bazar vasitəçilik strukturlarının inkişaf etdirilməsi;
- aqrar-sənaye kompleksində elmi-texniki innovasiya yönümlü məhsullara olan tələbin stimullaşdırılması.

Aqrar sahədə investisiya aktivliyinin yüksəldilməsi, eləcə də innovasiya yönümlü məhsul istehsalının artırılması üçün istər dövlət və istərsə də regional səviyyədə qanunvericiliyin təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi vacibdir, daha doğrusu, bu sahədə qanunvericiliyin təminatının müasir dünya standartlarına uyğunlaşdırılması, eləcə də həmin qanunvericilik aktlarının zəruri icra mexanizmlərinin formalaşdırılması da mühüm amillərdən biri hesab edilir.

Aqrar sahədə sahibkarlığın inkişafına istiqamətlənmiş tədbirlər çərçivəsində bazar münasibətləri şəraitində istehsalın dövlət tərəfindən idarə edilməsinin əsas mexanizmlərinə investisiya mexanizmləri şamil edilir. İnvestisiya mexanizmi daxili və xarici investisiyaların cəlb edilməsinə istiqamətlənmiş məqsədyönlü fəaliyyəti özündə əks etdirir ki, bu da son nəticədə məhsul istehsalı sahələrinin genişləndirilməsinə və eləcə də ərzaq bazarında yerli əmtəə istehsalçılarının xüsusi çəkisinin davamlı olaraq artımına əlverişli şərait yaradır.[5, s.16-17]

Məqalədə aqrar sahədə sahibkarlığın inkişafına kömək məqsədilə aşağıdakılar tövsiyə edilir:

- müasir şəraitdə aqrar sahədə sahibkarlığın inkişafına təsir edən amillərin müəyyənləşdirilməsi;
- regionların ixtisaslaşma istiqamətindən asılı olaraq kənd təsərrüfatında sahibkarlığın ayrı-ayrı növlərinin inkişaf prioritetlərinin geniş tətbiq edilməsi;
- aqrar sahibkarlığın inkişafında bazar infrastrukturlarının rolu və mövqeyinin nədən ibarət olması;
- kənd təsərrüfatında sahibkarlığın inkişafına kooperasiya münasibətlərinin təsirinin müəyyən

edilməsi;

- aqrar sahədə sahibkarlıq qurumlarının daxili və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsində rolunun müəyyən edilməsi;
- aqrar sahibkarlığın inkişafında kiçik və müştərək müəssisələrin rolu;
- kapital resurslarına olan ehtiyacların ödənilməsinin aqrar sahibkarlığın inkişafına təsiri və sairə.

Nəticə

Müasir şəraitdə sahibkarlıq fəaliyyətinin iqtisadi təbiəti əsas etibarilə bir sıra amillərlə şərtlənir ki, bu amillərə də ilk növbədə təşəbbüskarlıq qabiliyyətini, kommersiya risklərini, təsərrüfat məsuliyyətini, istehsal faktorlarının kombiləşməsini və yenilik funksiyalarını aid etmək mümkündür. Sahibkarlıq fəaliyyətinin inkişafında təşəbbüskarlıq qabiliyyətinin mühüm rol oynaması ilk növbədə onunla bağlıdır ki, müasir şəraitdə sahibkarlıq subyektləri daha çox qeyri-müəyyən bazar rejimində fəaliyyət göstərirlər. Bu isə bir tərəfdən sahibkarlıq fəaliyyətinin təşəbbüskarlıq qabiliyyətinin güclənməsini şərtləndirir ki, bu da qeyri-müəyyənliyin azalmasına istiqamətlənir. Digər tərəfdən təşəbbüskarlıq qabiliyyətinin inkişaf etdirilməsi, əslində yeni bazarlar ələ keçirilməsi ilə sıx əlaqədardır və bu da istehlakçıların tələbatlarına uyğun gələn məhsul istehsalı və xidmətlər göstərilməsi ilə sıx əlaqədardır. Əslində təşəbbüskarlıq qabiliyyətinin reallaşdırılması həm iqtisadi, həm də sosial xarakter daşıyır. Beləliklə, əslində sahibkarlıq fəaliyyətinin iqtisadi təbiətini xarakterizə edən təşəbbüskarlıq qabiliyyətinin özü belə, onun sosial aspektlərinin reallaşdırılmasına xidmət edir.

Sahibkarlıq fəaliyyətini səciyyələndirən mühüm cəhət kimi sahibkarlıq təşəbbüsləri, ilk növbədə iqtisadi azadlıqlar şəraitində öz təzahürünü tapır. İqtisadiyyatda sahibkarlıq aktivliyini şərtləndirən ən mühüm cəhətlərdən biri iqtisadi azadlıqdır. İqtisadi azadlıq ilk növbədə məhsul istehsalının reallaşdırılması ilə bağlı sahibkarlıq təşəbbüslərinin həyata keçirilməsi ilə bağlı mövcud proses və şərtlərin məcmusunu özündə əks etdirir. Sahibkarlıq fəaliyyətinin inkişafında iqtisadi azadlığın mühüm rol oynaması, ilk növbədə sahibkarlıq subyektlərinin resursları bərabər əldəetmə imkanlarına malik olması, eləcə də fəaliyyət növünün sərbəst seçilməsi, gəlirin bölüşdürülməsi və gəlir əldə etmək hüququ ilə sıx əlaqədardır. Bununla belə əslində sahibkarlıq fəaliyyətinin mühüm xarakterik xüsusiyyətlərindən birini təşkil edən iqtisadi azadlıqların verilməsi heç də mütləq xarakter daşımır. İqtisadi azadlıqlar əslində iqtisadi sistemin xarakter və tipindən bilavasitə asılıdır, ilk növbədə dövlətin həyata keçirdiyi siyasətin prioritetləri ilə də əlaqədardır. Sahibkarlıq qurumlarının azadlığının mütləq xarakter daşımaması ilk növbədə onunla bağlıdır ki, iqtisadi azadlıq əslində həyata keçirilən istehsalçının istehlakçılar üzərindəki hakimiyyətini səciyyələndirir. Ən mühüm ikinci amil isə onunla bağlıdır ki, iqtisadi azadlıqlar əslində bir qrup qaydalar sistemi ilə tənzimlənir ki, bu da ilk növbədə geniş təkrar istehsalın bütün mərhələlərinə şamil edilir və xüsusilə özünü bazar mübadiləsi prosesində kəskin şəkildə təzahür etdirir. Sahibkarlığın iqtisadi azadlıqlarını şərtləndirən sərhədlər ilk növbədə iqtisadi qanunlar və qaydalarla müəyyənləşdirilir. Təsadüfi deyildir ki, bazar iqtisadiyyatı, ilk növbədə iqtisadi qanunların hakim mövqe tutduğu bir sistem kimi xarakterizə edilir.[2, s. 11-12]

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq (qanunlar, normativ sənədlər, analitik materiallar). Bakı-2000.
2. Peredeo, A. M. and McLean, M. (2006). Social Entrepreneurship A Critical Review of the Concept. The Journal of World Business, 41(1): 56-65.
3. Moore, J. F., 1993, Predators and prey: a new ecology of competition, Harvard business review, 71 (3), 75-86. Agricultural Economics “Kənd təsərrüfatının iqtisadiyyatı” Экономика сельского хозяйства - 2022, № 4 (42) 33
4. Isenberg, D.J. (2010), “How to Start an Entrepreneurial Revolution”, Harvard Business Review,

88(6), 40-50.
5. Feld, B., 2012, Startup communities: Building an entrepreneurial ecosystem in your city, John Wiley & Sons, p.
6. Shane, S. ve Venkataraman, S., 2000, The promise of entrepreneurship as a field of research, Academy of management review, 25 (1), 217-226.

Мехрибан Джабир кызы Гасанова
Азербайджанский Государственный Аграрный Университет,
старший преподаватель
электронная почта: mehriban_adau@mail.ru

Развитие предпринимательства в сельскохозяйственной сфере в Азербайджане

Резюме

Цель исследования - развитие предпринимательства в аграрной сфере, определение форм предпринимательства, его внутренних и внешних факторов среды, изучение экономических и организационных механизмов предпринимательской деятельности в сельском хозяйстве.

Методика исследования – в исследовательской работе использовались различные подходы, логическое обобщение и другие методы.

Практическая значимость исследования - заключается в применении передовых технологий для развития аграрного предпринимательства с учетом согласованного механизма управления предпринимательской деятельностью в аграрном секторе, улучшения финансовых результатов предпринимательских организаций в сельском хозяйстве.

Результат исследования - развитие предпринимательства, коммерческих рисков, экономической ответственности, сочетание производственных факторов и инновационных функций в предпринимательской деятельности приводит к повышению ее эффективности.

Оригинальность и научная новизна исследования - в зависимости от направления специализации регионов, широкого применения приоритетов развития разных видов предпринимательства в аграрной сфере, значимости роли и положения рыночных инфраструктур в развитии аграрной экономики. предпринимательства были определены.

Ключевые слова: трансформационные изменения, развитие предпринимательства в аграрной сфере, предпринимательские субъекты различной формы собственности, экономическая природа предпринимательской деятельности.

Mehriban Jabir gizi Hasanova
Azerbaijan State Agrarian University, head teacher
e-mail: mehriban_adau@mail.ru

Development of entrepreneurship in agricultural field in Azerbaijan

Summary

The purpose of the research - is to develop entrepreneurship in the agricultural field, to determine the forms of entrepreneurship, its internal and external environmental factors, and to examine the economic and organizational mechanisms of entrepreneurial activity in agriculture.

Methodology of the research– various approaches, logical summarization and other methods were used in the research work.

The practical importance of the research - is to apply advanced technologies to the development of agrarian entrepreneurship, taking into account the coordinated management mechanism of entrepreneurial activity in the agricultural sector, the improvement of the financial results of

entrepreneurial organizations in agriculture.

The result of the research - development of entrepreneurship, commercial risks, economic responsibility, combination of production factors and innovation functions in entrepreneurial activity leads to increase of its efficiency.

The originality and scientific novelty of the research - depending on the direction of specialization of the regions, the wide application of development priorities of different types of entrepreneurship in the agricultural field, the importance of the role and position of market infrastructures in the development of agrarian entrepreneurship have been determined.

Key words: transformation-oriented changes, development of entrepreneurship in the agrarian field, entrepreneurial subjects of different ownership, economic nature of entrepreneurial activity.